AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# RESPUBLİKA FƏNN OLİMPİADALARI
## RESPUBLİKA MƏRHƏLƏSİ
## YARIMFİNAL TUR
**11.03.2017**

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT
# 10-cu SİNİF

**1. Hansı cümlədə ismin -*lar* şəkilçisi kəmiyyət baxımından fərqli məna daşıyır?**
A) Müəllim danışanlara xəbərdarlıq etdi.
B) O hankı vicdan ki, ağlar, ay aman, gündə bir don geyən dünya əlindən.
C) Gözəllər çıxıbdır seyranə gəlsin
D) Artıq burada da yavaş-yavaş soyuqlar düşürdü.
E) Şagirdlər tənəffüsdə ucadan danışırdılar.

**2. Hansı cümlədə cümlə üzvlərinin sayı** *" Zeynalın qəmli ananın qəlbində kədərli hiss oyadan bu hekayətini çox çətinliklə danışdı".* **- cümləsindəki ilə eynidir?**
A) Az qala dostumu tanımayacaqdım.
B) Bayrama bir gün qalmış biz təyyarə ilə Bakıya qayıtdıq.
C) Onun zil səsi danışığına xüsusi məlahət verirdi.
D) Gülşən ən çalışqandır.
E) Başladı, nə başladı, gəl görəsən.

**3. Yanaşı gəlmiş və əsas sintaktik vəzifəsində işlənməyən iki müxtəlif nitq hissəsinin işləndiyi cümləni seçin.**
A) Hər oxuyan Molla Pənah olmaz.
B) Nənəm yun şalını çiyninə saldı və mənim əlimdən tutub qapıya tərəf yönəldi.
C) Körpə ağlayıb özünü anasının qucağına atdı.
D) Ayaz bütün keçmiş həyatını gözünün qabağına gətirərək zümzümə edirdi.
E) Bütün xalq şəhid igidlərimizi əbədiyyətə yola salmaq üçün xiyabana axışırdı.

**4. Sözlərdən biri fərqli nitq hissəsidir.**
A) müsadirə B) müsəddəs
C) müsəlləh D) mütərcim
E) müqəddərat

**5. Doğru olmayan fikri seçin.**
A) Zərfliyin bütün məna növləri ilə xəbər arasında yanaşma əlaqəsi ola bilər.
B) Zərfliklə tamamlıq arasında, əsasən, idarə əlaqəsi olur.
C) Mübtəda heç vaxt sintaktik əlaqənin asılı tərəfi olmur.
D) Zərflik sintaktik əlaqədə həm asılı, həm də əsas tərəf olur.
E) Tamamlıqla tamamlıq arasında bəzən tabesizlik əlaqəsi ola bilər.

**6.** *"Müsamirə" leksik mənasına görə ..... deməkdir.* **Nöqtələrin yerinə hansı olmalıdır?**
A) məxfi iclas
B) yazılı müsabiqə
C) etiraz aksiyası
D) konsert, tamaşa
E) yarış

**7.** *Nə, nə də* **bağlayıcıları aşağıdakı cümlələrdən birində fərqli funksiya daşıyır.**
A) Arif evə gələndə nə imladan aldığı aşağı qiymət haqqında danışmışdı, nə də müəllimin xəbərdarlığını valideynə çatdırmışdı.
B) Oradan nə bir səs gəlir, nə də işıq görünür.
C) Nə Əjdərin danışığından bir şey anlayırdım, nə də cavab vermək iqtidarında idim.
D) Anam nə məni, nə də qardaşımı evdən bayıra buraxdı.
E) Nə Azər, nə də ki Rauf oyuna gəldi.

**8.** ***Səhv*** **yazılmış sözləri seçin:**
1. amplua 2. iməcilik 3.buyruq
4. nəqqaş 5. əcayib 6. yerfısdığı
A) 2, 5 B) 5, 6
C) 3, 6 D) 2, 6
E) 1, 3

**9.** *Çiyin, qarın, boyun, burun* **sözlərinə -ın$^4$ şəkilçisi artırılandan sonra 3 ikihecalı, 1 üçhecalı söz alınmışdır. Həmin sözlərin hansı halda olduğunu müəyyənləşdirin.**
A) 4 adlıq
B) 2 adlıq, 2 yiyəlik
C) 1 adlıq, 3 yiyəlik
D) 3 adlıq, 1 yiyəlik
E) 4 yiyəlik

**10. Xəbər cümlədə nə zaman həm asılı, həm də əsas tərəf kimi çıxış edə bilər?**
A) Cümlədə mübtəda iştirak etmirsə
B) Cümlədə yalnız baş üzvlər iştirak edirsə
C) Cümlədə mübtəda ilə bərabər ikinci dərəcəli üzv olarsa
D) Xəbər yalnız feillə ifadə olunarsa
E) Xəbər yalnız isimlə ifadə olunarsa

**11.** *"Xalq musiqisi qapılarını hər kəsin üzünə açır, bu musiqidə qarışıq, mənbəyi bilinməyən heç bir şey yoxdur"* **cümləsində altından xətt çəkilmiş ifadənin mənası aşağıdakı cümlələrdən hansında var?**
A) Onun qapıları hər kəsə açıqdır, qonaqpərvər olduğunu hamı bilir.
B) Qaydaları bəlli, başa düşülməsi mümkün olan sənət əsərini hamı anlaya bilər.
C) Xalq dastanları anlaşıqlı dildə yaranmışdır.
D) Xalq sənəti xalqın səmimiyyətini, mərdliyini əks etdirir.
E) Bir əsərdə hər zaman eyni ləzzəti tapmaq olmaz.

**12. Omonimləri uyğunlaşdırın:**

| | |
|---|---|
| 1. saz | a. min |
| 2. az | b. tər |
| 3. ac | c. en |
| 4. ləpə | d. bağ |
| 5. gül | e. sarı |

A) 1-b, 2-a, 3-e, 4-d, 5-c
B) 1-e, 2-b, 3-c, 4-d, 5-a
C) 1-b, 2-d, 3-a, 4-e, 5-c
D) 1-c, 2-a, 3-e, 4-c, 5-d
E) 1-e, 2-c, 3-d, 4-a, 5-b

**13. Cümlələrdən birində iki mənsubiyyət şəkilçili söz işlənib.**
A) İti bazarında atından baha...
B) Mən belə dünyanın nəyindən küsüm?
C) Bunların hansı sənin kitabını götürüb?
D) Ətrafına gül əkilmiş uşaq bağçası gözəl görünürdü.
E) Xəstənin yanına yaxınları və dostları gəlib gedirdi.

**14.** *"Eləsi var, söz demək mümkün deyil".*-
**tabeli mürəkkəb cümləsində budaq cümlənin növünü göstərin.**
A) təyin budaq cümləsi
B) xəbər budaq cümləsi
C) tamamlıq budaq cümləsi
D) mübtəda budaq cümləsi
E) tərzi-hərəkət budaq cümləsi

**15. Verilmiş cümlədən hansı sözü çıxarsaq, cümlə üzvlərinin sayı artar?**
*Mənim vəfalı dostum içəri daxil olanda mənə təəccüblə baxdı.*
A) Mənim B) vəfalı
C) mənə D) təəccüblə
E) dostum

**16. Şah İsmayıl Xətainin "*Dəhnamə*" poeması ilə bağlı verilənləri ardıcıl olaraq sıralayın.**
1. "Bahariyyə" hissəsi.
2. Minacət, nət, meracnamə, Əlinin və digər imamların tərifi.
3. Aşiqin Bağbanla qarşılaşması.
4. Göz yaşının üçüncü elçiliyi.
5. Aşiqin Səbanı axtarıb tapması.
6. Aşiqin hallaşması.
A) 3, 4, 1, 2, 5, 6 B) 2, 1, 3, 5, 4, 6
C) 1, 2, 5, 6, 3, 4 D) 2, 5, 3, 6, 1, 4
E) 1, 2, 6, 3, 5, 4

**17. *"İsgəndərnamə"* (N. Gəncəvi) poeması haqqında doğru fikri göstərin.**
A) *"Şərəfnamə"* hissəsini bəzən *"Xirədnamə"*də adlandırırlar.
B) *"İqbalnamə"*də süjet*"Şərəfnamə"*yə nisbətən bitkin xarakter daşıyır.
C) İsgəndər ümumbəşəri ədalət, xeyir və əmin-amanlıq uğrunda apardığı mübarizədə təkdir.
D) İsgəndərin poladdan sədd çəkdirməsi poemanın birinci hissəsində verilir.
E) Misir hökmdarının kömək istəyinə İsgəndər əvvəlcə razılıq vermir.

**18. Verilmiş ədəbi hadisələrdən hansı daha əvvəl baş vermişdir?**
A) Geniş hadisələrdən bir süjet xətti üzrə bəhs edən ilk əsər qələmə alınır.
B) Ana dilində ilk əsərlər meydana çıxmağa başlamışdır.
C) Türk, fars, ərəb dillərinin hər üçündə yazan sənətkarlar yetişir.
D) "Leyli və Məcnun" mövzusunda ilk əsər yazılır.
E) Ana dilində bədii nəsrin əsası qoyulur.

**19. Bəndlərdə adları çəkilən sənətkarlardan hansına verilmiş xüsusiyyətlərdən yalnız biri aid edilə bilər?**
- Qəzəl janrında şeir yazmamışdır.
- Həm lirik, həm də epik növdə əsərləri var.
- Nəsrlə yazılmış əsəri var.
- Nizami ədəbi məktəbinin davamçılarından biridir.
- Əsərlərini ancaq əruz vəznində yazmışdır.

A) İ.Həsənoğlu B) Ə.Xaqani
C) M.Füzuli D) İ.Nəsimi
E) Ə.Təbrizi

**20.** M.Füzulinin hansı əsərinə aid məlumat ***verilməmişdir?***
1. Poemadır, digər poemalarından fərqli olaraq, ana dilində yazılmamışdır.
2. Nəsrlə yazılmışdır, əsər bədiilikdən tamamilə uzaqdır.
3. Nəsr əsəridir, fars dilində yazılmışdır.
4. Poemadır, əsərdə alleqorik xüsusiyyət daşımır.

A) “Yeddi cam”
B) “Səhhət və Mərəz”
C) “Mətləül-etiqad”
D) “Söhbətül-əsmar”
E) “Leyli və Məcnun”

**21. Biri düzgündür:**
A) Həm qoşma, həm də gəraylıları ilə məşhurdur – Ş.İ.Xətai, M.P.Vaqif
B) Həm heca, həm də əruz vəznlərində yazıb- M.Əmani, S.Təbrizi
C) Həm bədii, həm də elmi əsərlər müəllifidir – N.Gəncəvi, M.Füzuli
D) Həm qəzəllərini, həm də qəsidələrini ayrıca divanda toplayıb – İ.Nəsimi, M.Füzuli
E) Həm real, həm də ilahi məhəbbəti tərənnüm edən şeirləri var - N.Gəncəvi, Ş.İ.Xətai

**22.** *Bağrım yaralı misali-lalə*
*Qəmdən ürəyim dolu piyalə* - **nümunəsində məcazın hansı növündən istifadə olunmuşdur?**
A) Metafor
B) Epitet
C) Təşbeh
D) Simvol
E) Metonimiya

**23. “Keçəl Həmzənin Qıratı qaçırması” qolundan seçilmiş bəndlə bağlı fikirlərdən yalnız biri doğrudur:**

*Çünki oldun dəyirmançı*
*Çağır gəlsin dən, Koroğlu!*
*Verdin Qırı, aldın Dürü,*
*Döy başına, yan, Koroğlu!*

A) Keçəl Həmzə tərəfindən deyilir.
B) Koroğlunun özü tərəfindən deyilir.
C) Çənlibeldə söylənir.
D) Qoşma janrındadır, qafiyə quruluşuna görə ilk bənd olduğunu söyləmək mümkündür.
E) Bənd onu söyləyənin xoş ovqatını əks etdirir.

**24. "Salur Qazanın evinin yağmalanması boyu" ilə bağlı hadisələri ardıcıllıqla düzün.**
1. Beş yüz oğuz igidi şəhid olur.
2. Şöklü Məlik məclisdə Burla xatuna şərab paylatmaq qərarına gəlir.
3. Qazan xan Qaraca Çobandan ailəsini xəbər alır.
4. Burla xatun oğlu ilə dərdləşir.
5. Qazan xan ovdan geri dönür.

A) 2, 5, 3, 4, 1
B) 5, 4, 1, 2, 3
C) 5, 3, 2, 4, 1
D) 5, 2, 3, 4, 1
E) 1, 5, 2, 3, 4

**25. Verilmiş nümunəni tamamlayın.**
“ *Payibəndəm, qəmi-eşqə giriftar,*
*Hicran atəşindən can oldu bimar,*
*Razi-dilimedə bilməm aşikar,*
............................................ ”

A) Gəzməsin arada yaman, bəri bax!
B) Siz yetirin bir nişana, durnalar!
C) Unutma aşiqi, haşa, qərənfil.
D) Çəkərəm dərdini pünhan, bəri bax!
E) Çəkilsin üstümdən duman, bəri bax!